# M.Füzuli özü haqqında

*Gülşən Əliyeva,*
*filologiya elmləri namizədi, dosent*

**Füzulişünaslıq tarixi bədii ədəbiyyatın özü qədər qədim olan Azərbaycan ədəbiyyatşünaslığının tərkib hissəsi, onun zəngin və aparıcı istiqamətlərindən biridir. Hər bir elm kimi füzulişünaslıq da onun obyekti və predmeti - M.Füzuli və onun irsi meydana çıxdıqdan sonra təməl tapmağa başlayıb. Nizami olmadan nizamişünaslıq, Şekspir olmadan şekspirşünaslıq, Nəvai olmadan nəvaişünaslıq mümkün olmadığı kimi dahi qəlb şairi M.Füzuli olmadan da nə dünya - Türkiyə, Rusiya, Avropa və Orta Asiya füzulişünaslığı, nə də Azərbaycan füzulişünaslığı mümkün olmazdı. Bu, ümumən elmin tarixi üçün səciyyəvi xüsusiyyətdir.**

Qərb-Şərq elmi-mədəni münasibətlərinin görkəmli tədqiqatçısı N.İ.Konrad yazır: "Ədəbiyyat tarixi, eyni zamanda, bədii ədəbiyyat haqqında təsəvvürün tarixidir" (Конрад Н.И. Запад и Восток. M., 1972, c.418).

Bu düzgün metodoloji mülahizəni füzulişünaslığın tarixinə də aid etmək olar. Füzulişünaslıq təkcə Füzuli haqqında elm deyil, Füzuli irsi və Füzuli haqqında elmin vəhdətidir. Biz buraya belə araşdırmalarda çox zaman unudulan bir cəhəti də əlavə etməliyik: füzulişünaslıqda Füzuli füzulişünaslığının dərk etdiyi səviyyədə iştirak edir. Bu isə hələ Füzulinin füzulişünaslıqda sonadək iştirakı, təmsil və dərk edilməsi deyil. Klassikin böyüklüyü məhz ondadır ki, o tarixdə hər yeni nəsillə yenidən doğula bilir. Ona görə də biz füzulişünaslığın mənşəyi, bu böyük şair haqqında yazmış ilk tədqiqatçıdan, məsələn, Qəstəmonlu Lətifin M.Füzulinin sağlığında - 1546-cı ildə yazılmış "Təzkirətül-şüəra"sından deyil, məhz M.Füzulinin özündən başlamağı doğru hesab edirik...

Əvvəlcə bir məsələni nəzəri-metodoloji cəhətdən aydınlaşdırmalıyıq: M.Füzulinin SÖZ haqqında dedikləri, Füzulinin öz SÖZ-ü haqqında dedikləri və Füzulinin ÖZÜ haqqında dedikləri! Bunlar ayrı-ayrı nəzəri istiqamətlərdir. İndiki halda bizim tədqiqat predmetimiz Füzulinin özü və SÖZ-ü haqqında söylədiyi fikir və mülahizələrdir. M.Füzuli haqqında onun sağlığından üzü bəri yazılan bütün təzkirə, risalə, poetika əsərləri, məqalə və monoqrafiyalarında onun öz sənəti ilə bağlı görüşləri bu və ya başqa səviyyədə nəzərdən keçirilib. Tədqiqatçılar öz araşdırmalarının məqsəd və problemlərinə uyğun olaraq M.Füzuli poeziyasına, necə deyərlər, onun öz əli ilə açar salmağa çalışıblar. Əslində başqa cür də mümkün deyil. M.Füzulinin nəzəri-estetik görüşlərinə və poetika məsələlərinə həsr olunmuş ayrıca doktorluq işi yazılıb və bu qiymətli əsər monoqrafik şəkildə çap olunub (Əliyev S. Füzulinin poetikası. B., Yazıçı, 1986).

Amma bu vaxtadək M.Füzulinin özü haqqında dedikləri ayrıca tədqiq olunmayıb, M.Füzuli ilk füzulişünas kimi müstəqil tərzdə öyrənilməyib. İlk dəfə bu işə girişərkən qeyd etməlyik ki, Füzulinin ÖZÜ haqqında görüşlərini onun söz sənəti konsepsiyasından ayırmaq olmaz, bu problemə M.Füzulinin bütöv yaradıcılıq təkamülü, o cümlədən söz sənəti kontekstində nəzər salmaq lazımdır.

Təzkirəsini 1563-cü ildə bitirmiş Əhdi Bağdadidən tutmuş 500 illik yubileyi dövründə çap olunan tədqiqatlara qədər əksər əsərlərində M.Füzulinin qüdrətli alim, bu halda filosof-nəzəriyyəçi, ədəbiyyatşünas olduğu geniş şəkildə qeyd edilib. Ə. Bağdadi "Gülşəni-şüəra"da yazırdı: "Mövlana Füzuli Bağdadi bilik və mərifətdə kamil, hünər fənlərində fazil, şux təbli, şirin söhbət, elm-həndəsədə, hikmət və heyətdə mahir, yeni mənalı məzmunlar tapmaqda misilsizdir".

XX əsrin böyük ədəbiyyatşünası F.Köçərli Füzuli şerinin bütün zamanlar üçün təzə və əbədi qalmasının səbəbindən biri olaraq yazır: "Füzulinin qələmi gövhərrizindən vücudə gələn lölövü cəvahirlə tikilmiş imarətin divarları elm və maarifin bünövrəsi üstündə qərar tutmuşdur və afəti-zəmanədən ona bir xof və xətər yoxdur".

Böyük ədib, maarifçi və ədəbiyyatşünas A.Şaiq də onun alimliyini şairliyinə bərabər tuturdu:

"Fitrətən şair olan Füzuli, zamanında məşhur elmləri böyük bir maraq ilə kəsb edərək həm alim, həm şair olmuşdur".

Tədqiqatçıların heç biri M.Füzulinin böyük alim olduğuna şübhə etmir. Onu universal bir zəka, həm poetikanın, həm dünyəvi, həm də dini elmlərin kamil bilicisi adlandırırlar. M.Füzulinin poetikası haqqında ilk sanballı əsərin müəllifi görkəmli yazıçı və nəzəriyyəçi alim Mir Cəlal yazıb: "Füzuli dövrünün ən böyük şairi olduğu kimi, həm də ən böyük alimi idi. Özü dediyi kimi əziz ömrünü zamanın "əqli və nəqli, həkəmi və həndəsi" elmlərini dərindən öyrənməyə sərf etmişdir.

Bunu Füzuli alim olmaq, elm sahəsində bir ixtisas qazanmaq üçün yox, ancaq və ancaq şairliyi, sənəti və yaradıcılığının mükəmməlliyi üçün etmişdir (Mir Cəlal Füzuli sənətkarlığı. B., "Maarif" nəşr., 1994, s.10).

Bununla belə, M.Cəlal hələ 1940-cı ildə yazdığı "Füzuli sənətkarlığı" əsərində belə bir fikir söyləyirdi ki "şair bu mövzularda xüsusi elmi əsər yazmaq təşəbbüsü göstərməmişdir".

Ola bilsin ki, bu məsələ məhz təşəbbüs səviyyəsində də qalıb. Mir Cəlalın "Füzulinin şer haqqında nəzəri görüşlərinə dair" adlı sanballı məqaləsində M.Quluzadə bu fikrin əksini irəli sürür: "Məlum olduğu üzrə Füzuli öz ədəbi-nəzəri görüşləri haqqında xüsusi əsər yazmamışdır. O, şerə baxışını azərbaycanca, farsca divanlarına və qəsidələrinə yazdığı müqəddimələrdə, "Leyli və Məcnun"da, "Rindü-Zahid"də və başqa əsərlərində ifadə etmişdir. Lakin cəsarətlə demək olar ki, Füzuli Azərbaycan ədəbiyyatı tarixində bədii yaradıcılığının nəzəri məsələləri ilə ən çox məşğul olan bir şairdir" (Quluzadə M.Füzulinin şer haqqında nəzəri görüşlərinə dair: Məhəmməd Füzuli. Azərnəşr, 1958, s.62). Maraqlıdır ki, bu sitatda verilən birinci fikri professor M.Quluzadə 1965-ci ildə çap olunmuş "Füzulinin lirikası" kitabına daxil etməyib (bax.səh.246-247).

Belə qənaətə gəlmək olar ki, alim "Füzuli öz ədəbi-nəzəri görüşləri haqqında xüsusi əsər yazmamışdır" fikrinə əmin olmamış, yaxud da belə hökm vermək üçün onun əlində tutarlı faktlar yox imiş. M.Quluzadənin mülahizələrində bizim üçün maraqlı olan bir cəhət var. O yazır: "Füzuli böyük mütəfəkkir alim, istedadlı nəzəriyyəçi kimi öz ədəbi inkişaf istiqamətini, həmçinin müasir dövrün və gələcək ədəbi hərəkatın yolunu nəzəri görüşləri ilə istiqamətləndirmişdir" (Quluzadə M. Füzulinin lirikası, s.247). Kursivlə ayırdığımız fikir bizim nəzəri mövqeyimizi təsdiq edir: Füzuli haqqında ilk nəzəri fikri məhz nəzəriyyəçi Füzuli söyləmiş və o, ümumən füzulişünaslığın, o cümlədən Azərbaycan füzulişünaslığının banisi hesab oluna bilər. Bu barədə fikrə yəqinlik gətirmək üçün məxsusi M.Füzulinin dünyagörüşünə və nəzəri-estetik görüşlərinə həsr olunmuş iki dəyərli tədqiqata da müraciət edək. "Füzuli dövrünün görkəmli alimi olmuş, elmin bir çox sahələrində dərin və geniş biliklər əldə etmişdir". Bu qənaəti M.Füzulinin ərəbdilli yunan elmi və Şərq, xüsusilə Çin və Hind fəlsəfəsi ilə dərindən aşina olduğunu araşdıran F.Qasımzadə irəli sürür (Qasımzadə F. "Qəm karvanı", yaxud zülmətdə nur. B., Azərnəşr, 1968, s.335). "Füzulidə şairlik

əksərən vasitə, alimlik məqsəddir" (Əliyev S. Füzulinin poetikası, s.5) - deyə tədqiqatının mövzusuna uyğun olaraq hətta bir qədər ifrata varan S.Əliyev əslində M.Füzulinin nəzəri-estetik görüşlərindən bəhs edən "Füzulinin poetikası" (1986) kitabını belə başlayır: "Füzuli alim şairdir. Özü də təkcə xüsusi elmi əsərlərinə görə yox, həm də bədii əsərlərindəki elmi mühakimə üslubuna və nəzəri mülahizə materialına görə. Özgə elm sahələrinə aid yaratdıqları bir yana, bədii ədəbiyyat haqqında yazdığı elmi əsərlər monomental bir tədqiqatın mövzusudur. Lakin şairin şerlərindəki elmi fikirlər də cild-cild kitabların materiallarıdır...Şair Füzuli poeziyasında alimdir..." Beləliklə, M.Füzuli alimdir və alim Füzulinin tədqiqat, təhlil və təfsir predmetlərindən birincisi şair M.Füzulinin yaradıcılığıdır.

Füzuli söz yaradan istedad və ilhamı ilahi vergisi hesab edib. Azərbaycanca "Divan"ın dibaçisində o yazır ki, istedad insana (yəni həm də onun özünə!) ilahidən fitrətən verilir, fəqət istedad sahibi onu öz zəhməti ilə süsləməli, qədrini bilib pərvəriş tapmasına çalışmalıdır. Füzuliyə görə ruh kimi istedad da ilahinin insana bəxş etdiyi ən qiymətli sərvətdir. Şeri "qafiyeyi-nəzmi ənbiya" adlandıran şair yazırdı: "Mənim ki, səhifyei-cibillətimdə bidayəti-ruzi əzəldən kilki-qəza hərfi-məhəbbəti-nəzm rəqəm qılmışdı və hədiqeyi-xilqətimdə bidayəti-fitrətdən tüxmi-məvddət və mövzu-niyyət əkilmişdi, ol məcməin sahibi-imtizacindən nihali-təbiəti nəm çəkib izhari-əzhari-istedadi" nəzm etdi. Və ol məhfilin həvayi-ixtilatindən külbüni-cibillətim sərsəbz olub, məzrəəyi-mizacımda güli-məzaqi-şer bitdi".

Beləliklə istedad insan cibillətinə - onun varlığına ilahinin bəxş etdiyi bir vergidir.

Elə buna görə də, M.Füzuli farsca "Divan"ın dibaçisində yazırdı:

**Sözə xor baxmaq olmaz, hər bir söz**
**Ərşdəndir gəlib hədiyyə bizə.**
**Qəlbimiz meyl edir həmişə ona**
**Çünki söz nazil oldu qəlbimizə.**

Nazil olmaq müqəddəs kitaba - "Quran"a aiddir. Deməli, M.Füzuli bədii sözü, daha doğrusu, öz "Divan"ınındakı sözü ilahi kəlamına bərabər tutur. Yəni söz yaradılmır, söz gəlir, bəxş olunur. SÖZ-ü qəbul etməyə yalnız istedadlı adamların haqqı var: "söz yaradanın mədhi-sənasi nəğməsidir ki, o, qeybin gizli aləmində həqiqətlər cəvahirindən ətək-ətək şabaş edib qeyri-məhdud xəzinələr yaratmış, məhdud hərflərin dəyişməsi ilə hər bir xəzinəyə bir açar ixtira etmişdir".

M.Füzuli sözün tükənməzliyini də onun ilahidən gəlməsi ilə izah edir. Farsca "Divan"ının dibaçəsindəki şerlərdən birində yazır ki, söz xəzinəsi şah xəzinəsi deyil ki, oradan bir həb götürdükdə azalsın:

**İlahi feyzdən bir xəzinədir söz,**
**Tükənməz, sərf qıldıqca dəmadəm.**
**Məcazi şahların gənci deyil bu**
**Ki, bir həbbə götürdükdə ola kəm.**

Maraqlıdır, XVI əsrdə, islam dini və qaydalarının uca zirvədə duraraq hökm-fərma olduğu bir dövrdə dini idarənin işçisi olan M.Füzuli SÖZ-ü "Quran"dan da uca və əzəli sanırdı. Məşhur "Ənisül-qəlb" əsərində oxuyuruq:

**Sözün səni o əndazə böyükdür ki, müəllimlər,**
**Sözün məhsulu bilmişlər düanı, vəhyi Quranı.**

**Sən ey söz dilbərinə ziynəti-ziyvər verən insan**
**Libasi-mərifətdən qılma gəl məhrum o cananı.**

**Kifayətlənmə səslə, hərifə, mənada feyz axtar**
**Ki, Davudi nübüvvətdir əziz etmiş, nə əlhani.**

Və təbii ki, burada "müəllimlər" deyərkən M.Füzuli özünə qədərki dahi sənətkarları nəzərdə tutur. Qəsidələrinə yazdığı dibaçədə M.Füzuli həmin müəllimlərinin qüdrətini bir daha xatırlayaraq yazır:

**Keçən zamanlarda söz eyən dostlar,**
**Yerdə asimanın sirrini açmışlar.**

"Bu nəsihət məni gözəl söz söyləmək sənətinə başlamaqda qorxuzdu, lakin çox fikirləşdikdən sonra təfəkkür səyyahım bu yola düşdü".

Burada bir neçə cəhəti qeyd edək:

Birinci, lik dəfə SÖZ-ü özlərinə qədər Şərqdə dəbdə olmuş ALLAH, CAHAN, İNSAN üçlüyündə Allahdan sonra ikinci yerə gətirən hürufilər (xüsusən Nəsimi!) kimi Füzuli də SÖZ-ü peyğəmbərdən və ona nazil olmuş "Quran"dan əvvələ, Allahdan sonraya gətirir.

**Məndə sığar iki cahan, mən bu cahana sığmazam**
**Gövhərü-laməkan mənəm, kövni məkana sığmazam.**

- deyərək Nəsimi (Hürifilər) Cahan-ı İnsanda əridirlər. "Ənəlhəqq" - deyən Hürufilər İnsanı Allaha yaxınlaşdırırlar, Allahın İnsanda təcalla etdiyini iqrar edərək Allah-ı İnsan-da əridirlər:

"Qorxdular həqq deməyə döndülər insan dedilər" (Nəsimi)

Beləliklə, yerdə iki böyük qüdrət qalırdı: SÖZ və İNSAN!

İkincisi, M.Füzuli "ərşdən gələn" sözü - "asimanın sirrini açan açar" hesab edir: yəni göylərin sirrini göylərdən - ilahidən gəlmiş SÖZ aça bilər.

Üçüncüsü, M.Füzuli sözün gözəlliyi ilə bərabər onun "libasi-mərifət"lə süslənməsini, başqa sözlə sözün ağıl, irfan, əxlaq və elmlə dolu olmasını önəmli sayırdı.

Hər bir dövrdə olduğu kimi, M.Füzuli söz mülkünə qədəm basdığı çağlarda da sözü urvatdan salan, söz oğurluğu ilə məşğul olan, epiqonçu şairlər mövcüd idi. Şair farsca "Divan"ının dibaçəsində onları "söz ortaqları" adlandıraraq yazıb: "Şerə başladığım zamanlar hər gün bir təxəllüs bəyənir, bir müddət sonra eyni təxəllüsü işlədən bir şairə rast gəlir və aldığım təxəllüsü dəyişirdim" (Füzuli M.Əsərləri, III cild, s.17).

Bəlkə, məhz, elə buna görə də "Leyli və Məcnun" poemasının əvvəlində şair yazır:

**Söz mülkündə nizam getmiş,**
**Bu bəzmdə sən qalibsənü mən,**
**Bu bəzmi gəl edəlim müzəyyən!**
**Sən ver badə mən eyləyim nuş.**
**Mən nəzm oxuyum, sən ona tut kuş!**
**Bir dövrdəyəm ki, nəzm olub kar**
**Ətar bulub kasadan - əsar**
**Ol rütbədə qədrin - nəzmdir çun**
**Kim, küfr oxumur kəlami - mövzun.**

Söz mülkünün nizamının pozulduğu bir dövrdə nəzmi xar olduğu əyyamda M.Füzuli SÖZ-ün nüfuzunu qaldırmaqla məhz SÖZündən başlayır.

M.Füzuli özünəqədərki elmin və söz sənətinin nailiyyətlərini hər üç dildə mənimsəmiş "elm bir ruhdur" deyib dövrünün elmlərinə dərindən aşina olmuş, bədii söz sənətini bir "fənn" olaraq təhlil etmişdir.

M.Füzuli həm orjinal SÖZ-ün özünü, həm də onun elmini - estetikasını yaratmışdır. Şair söylədiyi bütün fəlsəfi - estetik müddəaları sübüt üçün yalnız öz əsərlərindən misal gətirmiş, cəmi bir yerdə "Leyli və Məcnun" poemasında Əbünüvasın, Nizaminin və Nəvainin adlarını çəkmişdir (Əsərləri, II cild, s.36).

Azərbaycanca, farsca "Divan"ların və qəsidələrin dibaçələri, "Leyli və Məcnun"un müqəddiməsi, "Rindü-Zahid", "Ənis ül-qəlb", "Mətlə ül-etiqad" əsərlərindəki nəzəri-estetik fikirlər məhz alim Füzulinin, şair Füzuli haqqında söylədikləridir. Başqa sözlə, M.Füzulinin estetik görüşlərinin, sənət konsepsiyasının əsasında M.Füzulinin söz sənəti dayanır. Bu, belə bir qənaətə gəlməyə əsas verir ki, dünya, o cümlədən Azərbaycan füzulişünaslığının banisi, məhz, M.Füzulidir və füzulişünaslığın mənşəyini M.Füzulidən başlamaq nəzəri-tarixi baxımdan obyektivdir.

Azərbaycan füzulişünaslığının təşəkkülü, həm də onun ilk mərhələsidir. Həqiqətən də "Ədəbi-tarixi prosesin mərhələ təsnifini vermək üçün, həmin mərhələlərin haradan başlandığını, ədəbiyyatın tarixi təşəkkülünü və mənşəyini müəyyənləşdirmək tələb olunur" (Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. B, Ozan. 1997, s.95).